

■ Xəyalə Rəis
*teatrşünas*

# Premyeraların ikinci nümayişi niyə gecikir?



Mövsüm yeniləndikcə teatrlarımız yeni tamaşalarla repertuarlarını daha da zənginləşdirir. Bu baxımdan teatrlarımız davamlı olaraq işləyir, sanki maraqlı tamaşa ərsəyə gətirmək üçün bir-birləri ilə yarışırlar. Hansı teatrın cari repertuarına nəzər yetirsək ən azından 25-30 tamaşanın olduğunu görərik. Amma və lakin.... Ortada bir problem var. Son dönəmlər müşahidələrimiz göstərir ki, premyerası keçirilən tamaşalar bir də bir aydan və ya 40 gündən sonra nümayiş olunur. İstənilən peşəkar rejissor təzə tamaşa hazırlayıbsa onun ilk nümayişində qüsurları qaçılmaz olur. Tamaşa göstərildikcə bir növ oturuşur, daha da mükəmməlləşir. Dekoru, işığı aktyor oyunu öz axarına düşür. Necə ki, bir çox məşhur teatrşünaslar, rejissorlar hər dəfə çıxışlarında vurğulayırlar ki, tamaşanın oturuşması üçün ən azı 10-15 dəfə keçirilməsi vacibdir. O zaman tamaşa daha baxımlı və qüsursuz olur.

Bəs, görəsən indi nə üçün tamaşalarımız premyeradan bir ay sonra repertuara daxil edilir? Mövzu ilə bağlı teatrlarımızın rəhbərlərini və rejissorlarını danışdırdıq. Onlar da bizim fikirlərimizlə razılaşaraq repertuar planına xüsusi diqqət yetirdiklərini qeyd etdilər.

**Gənc Tamaşaçılar Teatrının direktoru, əməkdar artist Mübariz Həmidov** məsələyə iki aspektdən yanaşdı: “Bizdə həm uşaqlar, həm də böyüklər üçün tamaşalar hazırlanır. Uşaqlar üçün hazırlanan tamaşalarda premyera olanda çalışırıq ki, onu bir gündə iki dəfə, ya da iki gün ardıcıl nümayiş etdirək. Birinci, bu tamaşanı möhkəmləndirmək üçündür. İkinci, məqam ondan ibarətdir ki, tamaşa çox oynanıldıqca yerinə oturur, sözlər, mizanlar, geyimlərə, dekora uyğunlaşır. Axşam tamaşaları isə bir az fərqlidir. Əgər tamaşanın premyerası olursa, onun ikinci-üçüncü nümayişi bir həftə sonra, bəzi hallarda isə bir aydan sonra olur. Repertuarımızda axşam tamaşaları üstünlük təşkil edir. Biz o hesabla aylıq repertuar tərtib edəndə çalışırıq ki, axşam tamaşalarını hər ay bir dəfə oynayaq. Plana görə tamaşaları repertuara daxil edirik. Bir aydan-bir klassik, müasir tamaşaları salırıq”.

Teatrın direktoru fikirlərimizlə razılaşaraq dedi ki, yeni tamaşaların ikinci premyerası ilə məsafəsi çox olur: “Çalışmalıyıq ki, bu məsafə qısa olsun. Tamaşalarımızın sayı çoxdur, istəyirik ki, digər tamaşalarımız da yaddan çıxmasın, heç olmasa ayda bir dəfə oynanılsın. Bəzən olur ki, bir tamaşa ay ərzində iki dəfə oynanılır. Bu, artıq sosial tələbdir. Tamaşaçılar istəyirlərsə, bir tamaşanı ayda iki dəfə nümayiş etdiririk. Misal üçün “Aydın” tamaşasını elə olur ki, həftədə iki dəfə oynayırıq, yaxud da bir gündə iki seans oynayırıq”.

**Musiqili Komediya Teatrının müdiri, əməkdar incəsənət xadimi Əliqismət Lalayev** qeyd etdi ki, onların iş strukturunda elə praktika yoxdur ki, premyeradan sonra tamaşa bir ay oynanılmasın: “Elə olub ki, tamaşanın üç gün dalbadal premyerası keçilib. Sonrakı aylarda hər həftə tamaşanın repertuara salınması düzgün deyil. Çünki repertuarda hər gün beş tamaşa olmur. Hər bir teatrın repertuarında 20-30 tamaşa olur. Bəzən premyeradan sonra 15, uzağı 20 gündən sonra tamaşa oynanılır. Ola bilməz ki, premyeradan 40 gün sonra biz o tamaşanı bir də oynayaq. Bizim praktikada belə bir hal yoxdur. Təbii ki, tamaşaların oturuşması, öz yerini alması üçün daha tez-tez oynanılmasına ehtiyac var və biz də bu praktikadan istifadə edirik. Ancaq 3 gündən bir yox, ayda 2 və ya 3 dəfə oynanılır”.

**Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının direktoru Rəşad Əhmədzadə** bizimlə söhbətində teatrın repertuarında yer alan sonuncu tamaşalardan bəhs edərək faktlarla danışdı. Bildirdi ki, premyerası olan tamaşa əgər bir ay və ondan artıq zamandan sonra tamaşaçılara təqdim olunursa, o istənilən nəticəni vermir: “Bizim sonuncu premyeramız dekabrın 2-də Stefan Sveyqinin “Yad qadının məktubu” əsəri əsasında hazırlanan “Unudulmuş kukla” adlı mono tamaşa oldu. Tamaşanın quruluşçu rejissoru Anar Məmmədovdur. Tamaşanın premyerasından sonra repertuara daxil olunması və mütəmadi nümayişi vacibdir. Yeni hazırlanan tamaşanın oturuşması üçün müəyyən zaman lazımdır. Aktyor öz obrazını oynadıqca daha da püxtələşir. Biz bu prinsipdən istifadə edirik. Beləcə, həm tamaşanın nə qədər tamaşaçı gətirdiyini müşayiət edir, həm də tamaşanın həllinə kömək etmiş oluruq. Çox nadir hallarda tamaşalarımız bir aydan bir göstərilir. Buna “Zəng” tamaşasını misal gətirə bilərik. Belə ki, həmin tamaşa böyüklər üçün nəzərdə tutulmuş mono tamaşadır. Tamaşada teatrımızın istedadlı aktyoru Rəhim Rəhimovun səhhəti ilə bağlı bir neçə dəfə ləngimələr oldu. Səhhətində müsbətə doğru dəyişikliklərdən sonra hər şey qaydasına düşdü. Əslində bu tamaşa festival üçün nəzərdə tutulub. Ümumiyyətlə, böyüklər üçün nəzərdə tutulan tamaşalar gec nümayiş olunur. Həmin tamaşalar daha çox festivallarda göstərilir”.

Teatrın direktoru əlavə etdi ki, onlar repertuar tərtib edərkən tamaşaçının marağını nəzərə alır. Belə ki, repertuar tamaşaçıların sorğusu və bədii şuranın rəyi nəticəsində həyata keçirilir: “Bizdə uğursuz tamaşa yoxdur ki, onu nəyəsə görə repertuara daxil edək. Repertuara daxil olan 30-a yaxın tamaşanın hamısı mütəmadi şəkildə oynanılır. Əgər tamaşa göstərilirsə, deməli onun tamaşaçısı var. Düzdür, hərdən balansı qoruyub saxlamaq üçün digər tamaşaları növbəti aylara da saxladığımız vaxtlar olub”.

**Sumqayıt Dövlət Dram Teatrının direktoru İslam Həsənov** isə dedi ki, teatrın repertuarına tamaşa seçərkən teatrın binasının yerləşdirdiyi ərazidəki əhalinin maraqlarını nəzərə alırlar: “Biz öz təcrübəmizdən irəli gələrək deyə bilərəm ki, belə hallar teatrımızda nadir baş verir. Hazırda dekabrın 14-də təhvil verəcəyimiz “Oğru” tamaşası üzərində çalışırıq. Tamaşaya tanınmış rejissor Rövşən Almuradlı quruluş verir. Tamaşanın premyerasından sonra elə həmin həftə yenə də nümayiş olunacaq. Tamaşada dublyorlar iştirak etdiyinə görə iki dəfə göstərəcəyik. Planlaşdırmışıq ki, tamaşa nümayiş olunduqdan sonra həftədə bir dəfə həmin tamaşanı göstərək. Çünki bizim tamaşalarımız çoxdur. Repertuarda 30-a yaxın tamaşa var. Aylıq repertuar təsdiq olunanda təbii ki, o biri tamaşalarla yanaşı, yeni tamaşanı da ora əlavə edirik. Nə qədər imkanımız varsa, təzə tamaşanı da nümayiş etdirməyə çalışırıq. Repertuarda oynanılan tamaşaların tamaşaçı marağını da nəzərə alaraq tez-tez oynamağa səy göstəririk”.

İ.Həsənov əlavə etdi ki, yeni tamaşaları digər tamaşalara nisbətən daha çox oynayırlar: “Çünki tamaşa oynanıldıqca oturuşmalıdır. Tamaşa 10-cu tamaşadan sonra normal tamaşa halına gəlib çıxır. Teatrın baş rejissoru, ədəbi hissi müdiri teatrın repertuarını təyin edirlər. Təbii ki, mənim nəzarətim altında. Bizim iş prinsipimiz bundan ibarətdir. Yeni tamaşa digərlərindən daha tez-tez oynanılır ki, mükəmməlləşsin”.

Ötən ay Akademik Milli Dram Teatrında “Vəsiyyət” tamaşasının quruluşçu rejissoru, **Sumqayıt Dövlət Dram Teatrının baş rejissoru Firudin Məhərrəmov** isə deyir ki, noyabrın 3-də pemyeradan sonra həmin ayın 4-də və 5-də, sonra daha iki dəfə sözügedən tamaşa teatrın səhnəsində oynanıldı. Bu ayın 9-10-da yenə də oynanılacağı gözlənilir: “Bəzi standartlar var ki, onlara riayət etməliyik. Tamaşa hazırlanandan sonra ən azından gün fərqi ilə 5-6 premyera olmalıdır ki, tamaşa oturuşsun. Elə teatr var ki, bu qanuna əməl edir. Bəziləri isə tamaşaçı problemi yaşadığı üçün riayət edə bilmir. Təzə tamaşada problemlər olur, aktyorlar tamaşaya tam oturuşa bilmirlər. Təzə tamaşalarda bir az əyər-əskiklər meydana gəlir, aktyor bir az həyəcanlı olur. Ona görə ən azından yeni tamaşa beş-altı dəfə premyera kimi oynanılmalıdır. Onda tamaşa bişir və aktyor tam sərbəst olur.”.

Firudin Məhərrəmov onu da əlavə etdi ki, ötən ay Sumqayıt Teatrında “Hacı Qara” tamaşasını təhvil verdik və həmin tamaşa ay ərzində 4 dəfə nümayiş olundu: “Premyeraların ard-arda nümayişi aktyorların oyununa da çox köməklik edir. Tamaşa premyeradan 15-20 gün sonra oynandıqda isə aktyoru yenidən ilhama gətirmək lazımdır ki, o həvəslə rola girsin, obrazı canlandıra bilsin. Hər teatrın öz prinsipi var. Yeni tamaşanın izləyiciləri az olsa da, çalışırıq ki, nümayiş olunsun və aktyorlar tam bişsin”.

**Gənc Tamaşaçılar Teatrının rejissoru, əməkdar artist Nicat Kazımov** isə dekabrın 3-də “Leyli və Məcnun” tamaşasını izləyicilərə təqdim edib. Deyir ki, növbəti dəfə həmin tamaşa yanvarın 7-də nümayiş olunacaq. Rejissor bizimlə söhbətində bildirdi ki, əslində yeni hazırlanan tamaşanın 2-3 dəfə ard-arda oynanılması mütləqdir: “Premyerası olan tamaşanın bir aydan sonra oynanılması o deməkdir ki, həmin tamaşanın yenidən məşqlərinə ehtiyac var. İkinci dəfə həmin tamaşa oynanılanda orada rol alan aktyorlar özlərini o qədər də rahat hiss etməyəcək. Mən də tərəfdarıyam ki, premyerası keçirilən tamaşalar ən azı 3 dəfə dalbadal oynanılsın. Əvvəllər premyeralar davamlı olaraq qısa fasilələrlə oynanılırdı. İndi isə sistem bir az fərqlidir. Bunun nədən qaynaqlandığından xəbərsizəm. Ola bilsin ki, repertuar bir neçə ay öncədən tərtib olunur və belə məsləhət görülür”.



Mübariz Həmidov



Əliqismət Lalayev



Rəşad Əhmədzadə



İslam Həsənov



Firudin Məhərrəmov



Nicat Kazımov